# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Konsolidə Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə

**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**

Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsin Rəhbərliyinə:

***Rəy***

Biz Dövlət Sosial Müdafiə Fondunun (qurumları) Aparat və digər struktur bölmələrinin (Birlikdə Qrup) 31 dekabr 2021-ci il tarixinə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixə başa çatan il üzrə konsolidə edilmiş daxilolmalar və xərclər haqqında hesabatı, konsolidə edilmiş xalis aktivlərdə dəyişikliklər haqqında hesabatı və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, eləcə də əsas uçot prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə , əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Qrupun maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

***Rəy üçün Əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir edilmişdir. Mühasiblər üçün Beynəlxalq Etika Standarları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu şərti rəyin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Digər qeydlər***

Qrupun 31 dekabr 2020-ci il tarixində bitən il üzrə konsolidə edilmiş maliyyə hesabatları digər auditorlar tərəfindən yoxlanılıb və həmin hesabatlara 3 noyabr 2022-ci il tarixində şərti-müsbət rəy verilmişdir. Biz 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmamışıq və buna görə də həmin dövr üzrə hesabatlara rəy və ya başqa heç bir təminat vermirik.

***Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlanması zamanı, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz, ümumiyyətlə, maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil edildiyi auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar spektisizm tətbiq edirik. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik.

- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini daşımırıq.

- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

- Rəhbərlik tərfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda fərdi maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər. Audit zamanı fəaliyyətin davamlılığına şübhə yaradan hal aşkar olunmamışdır.

- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Qrupun idarə edilməsinə cavabdeh olan şəxslərin nəzərinə çatdırırıq.

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Nexia EA

NEXİA EA

# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 590,703,474 | 261,225,058 |
| Mal-material ehtiyatları və inventarlar | 8 | 867,077 | 493,667 |
| Digər cari aktivlər | 9 | 183,287 | 224,083 |
| **Cəmi cari aktivlər** | | **591,753,838** | **261,942,808** |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 49,911,052 | 54,155,407 |
| Qeyri-maddi aktivlər | 11 | 2,212,731 | 2,439,923 |
| Dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlər | 12 | 3,358,813,228 | 2,401,121,484 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **3,410,937,011** | **2,457,716,814** |
| **CƏMİ AKTİVLƏR** | | **4,002,690,849** | **2,719,659,622** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Cari öhdəliklər:** | | | |
| Funksional fəaliyyətlə bağlı kreditor borclar | 20 | 13,784 | 5,557 |
| İşsizlikdən sığorta yığımları üzrə DMA qarşısında öhdəlik | 16 | 20,564,159 | 25,942,203 |
| Xüsusi vəsaitlər üzrə dövlət büdcəsinə borc | 21 | 1,479,800 | 632,338 |
| Xüsusi vəsaitlər üzrə ƏƏSMN-ə borc | 22 | 1,746,190 | 3,894,090 |
| Digər cari öhdəliklər | 23 | 974,291 | 333,509 |
| **Cəmi cari öhdəliklər** | | **24,778,224** | **30,807,697** |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Dünya Bankı qarşısında kredit üzrə öhdəlik | 24 | 198,939 | 612,968 |
| Dünya Bankı krediti ilə bağlı dövlət büdcəsinə olan borc | 25 | 635,981 | 816,343 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **834,920** | **1,429,311** |
| **Cəmi öhdəliklər** | | **25,613,144** | **32,237,008** |

# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **KAPİTAL:** | | | |
| Nizamnamə fondu | 26 | 5,000,000 | 5,000,000 |
| Əlavə kapital (yenidən qiymətləndirmə ehtiyatı) | 27 | 25,077,957 | 25,077,957 |
| Sığorta ehtiyatı | 29 | - | - |
| Dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlər | 12 | 3,358,813,228 | 2,401,121,484 |
| Ümumi fond | | 588,186,520 | 256,223,173 |
| **Cəmi kapital** | | **3,977,077,705** | **2,687,422,614** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **4,002,690,849** | **2,719,659,622** |

**Rəhbərlik tərəfindən:**

**Mətin Əsgər**
**İdarə Heyətinin sədr müavini, sədr vəzifəsini müvəqqəti icra edən**

**Orxan Səmədov**
**Mühasibat uçotu departamentinin müdir müavini, departamentin müdiri vəzifəsini müvəqqəti icra edən**

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

## KONSOLİDƏ EDİLMİŞ DAXİLOLMALAR VƏ XƏRCLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXDƏ BAŞA ÇATAN İL ÜÇÜN

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| **Daxilolmalar** | | | |
| Məcburi Dövlət Sosial Sığorta haqları | 14 | 3,851,954,752 | 3,565,343,874 |
| Sanatoriya-kurort yollayışlarının dəyərinin ödənişi | | 1,972,851 | 761,200 |
| | | **3,853,927,603** | **3,566,105,074** |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayırmalar | 22 | (2,803,556) | (4,547,340) |
| Dövlət büdcəsinə ayırmalar | 21 | (847,461) | (632,338) |
| **Ayırmalar çıxıldıqdan sonra daxilolmalar** | | **3,850,276,586** | **3,560,925,396** |
| **Funskional xərclər** | | | |
| Əhaliyə ödənişlərlə bağlı xərclər (pensiya və müavinətlər) | 17,18,20 | (4,717,023,027) | (4,586,953,924) |
| Sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirləri xərci | | (20,500,000) | (20,470,000) |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri | 19 | (17,026,392) | (16,405,360) |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | 30 | (15,000,000) | (15,800,000) |
| | | **(4,769,549,419)** | **(4,639,629,284)** |
| **Əsas fəaliyyət üzrə defisit** | | **(919,272,833)** | **(1,078,703,888)** |
| Dövlət büdcəsindən daxil olan transfer | | 1,307,408,256 | 1,177,914,030 |
| **Əsas fəaliyyət üzrə profisit** | | **388,135,423** | **99,210,142** |
| **İnzibati xərclər** | | | |
| DSMF-nun saxlanılması xərci | 31 | (64,613,646) | (61,685,279) |
| Beynəlxalq təşkilatlara üzvlük haqqı ilə bağlı xərclər | 32 | (56,523) | (59,004) |
| Kreditin qaytarılması ilə bağlı faizlər və xərclər | | (5,608) | (3,471) |
| TTA və QMA-in köhnəlməsi | | (6,268,943) | (2,458,345) |
| **Cəmi inzibati xərclər** | | **(70,944,720)** | **(64,206,099)** |
| Sair daxilolmalar | 34 | 16,329,103 | 4,342,988 |
| Sair xərclər | 34 | (20,637) | (18,621) |
| Aktivlərin əvəzsiz daxil olmasından gəlir | 35 | 823,476 | 17,878 |
| Aktivlərin verilməsindən və silinməsindən itkilər | 35 | (2,359,298) | (1,539,653) |
| | | **14,772,644** | **2,802,592** |
| **Ümumi fond üzrə artım** | | **331,963,347** | **37,806,635** |
| **Digər məcmu gəlirlər** | | | |
| Yenidən qiymətləndirmə ehtiyatı | | - | 25,077,957 |
| **İL ÜZRƏ ARTIM** | | **331,963,347** | **62,884,592** |

**Rəhbərlik tərəfindən:**

**Mətin Əsgər**
**İdarə Heyətinin sədr müavini, sədr vəzifəsini müvəqqəti icra edən**

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Orxan Səmədov**
**Mühasibat uçotu departamentinin müdir müavini, departamentin müdiri vəzifəsini müvəqqəti icra edən**

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxs

10-58-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KONSOLİDƏ EDİLMİŞ XALİS AKTİVLƏRDƏ DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXDƏ BAŞA ÇATAN İL ÜÇÜN

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Nizamnamə fondu | Əlavə Kapital/ Yenidən qiymətləndirmə | Dövlət büdcəsindən transfer | Ümumi fond | Sığorta ehtiyatı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il** | - | - | - | **225,965,625** | - | **225,965,625** |
| BMHS-na keçidlə bağlı düzəlişlər | - | - | **1,395,270,688** | **(2,549,087)** | - | **1,392,721,601** |
| **1 yanvar 2020-ci il** | - | - | **1,395,270,688** | **223,416,538** | - | **1,618,687,226** |
| Nizamnamə Fondunda dəyişiklik | 5,000,000 | - | - | (5,000,000) | - | - |
| Cari ildə daxilolan transfer | - | - | 1,177,914,030 | - | - | **1,177,914,030** |
| Cari il üçün ayrılmayan transfer | - | - | 1,005,850,796 | - | - | **1,005,850,796** |
| Daxil olan transferin xərcə silinməsi | - | - | (1,177,914,030) | 1,177,914,030 | - | - |
| İl üzrə xalis daxilolmalar və xərclər | - | 25,077,957 | - | (1,140,107,395) | - | **(1,115,029,438)** |
| Sığorta ehtiyatı üçün ayırma | - | - | - | - | 287,044,792 | **287,044,792** |
| Sığorta ehtiyatının istifadəsi | - | - | - | - | (287,044,792) | **(287,044,792)** |
| **31 dekabr 2020-ci il** | **5,000,000** | **25,077,957** | **2,401,121,484** | **256,223,173** | - | **2,687,422,614** |
| Cari ildə daxilolan transfer | - | - | 1,307,408,256 | - | - | **1,307,408,256** |
| Cari il üçün ayrılmayan transfer | - | - | 957,691,744 | - | - | **957,691,744** |
| Daxil olan transferin xərcə silinməsi | - | - | (1,307,408,256) | 1,307,408,256 | - | - |
| İl üzrə xalis daxilolmalar və xərclər | - | - | - | (975,444,909) | - | **(975,444,909)** |
| Sığorta ehtiyatı üçün ayırma | - | - | - | - | 316,976,651 | **316,976,651** |
| Sığorta ehtiyatının istifadəsi | - | - | - | - | (316,976,651) | **(316,976,651)** |
| **31 dekabr 2021-ci il** | **5,000,000** | **25,077,957** | **3,358,813,228** | **588,186,520** | - | **3,977,077,705** |

**Rəhbərlik tərəfindən:**

**Mətin Əsgər**
**İdarə Heyətinin sədr müavini, sədr vəzifəsini müvəqqəti icra edən**

**Orxan Səmədov**
**Mühasibat uçotu departamentinin müdir müavini, departamentin müdiri vəzifəsini müvəqqəti icra edən**

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

### KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXDƏ BAŞA ÇATAN İL ÜÇÜN

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| **Cari əməliyyatlarla bağlı pul axınları** | | | |
| **Funksional fəaliyyətlə bağlı pul axınları** | | | |
| Məcburi dövlət sosial sığorta haqqları | | 3,847,256,901 | 3,565,343,874 |
| Sanatoriya kurort yollayışlarının dəyərinin qismən ödənilməsi | | 1,972,851 | 761,200 |
| ƏƏSMN-nə köçürmələr | | - | (1,367,925) |
| Əhaliyə ödənişlər (pensiya və müavinət) | | (4,717,033,889) | (4,586,971,482) |
| Sanatoriya kurort müalicəsi və sağlamlaşdırma tədbirləri | | (20,500,000) | (20,470,000) |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri | | (17,001,259) | (16,405,360) |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | | (15,000,000) | (15,800,000) |
| | | **(920,305,396)** | **(1,074,909,693)** |
| Dövlət büdcəsindən daxil olan transfer | | 1,307,408,256 | 1,177,914,030 |
| **Funksional fəaliyyət üzrə xalis pul axını** | | **387,102,860** | **103,004,337** |
| | | | |
| **İnzibati fəaliyyətlə bağlı pul axınları** | | | |
| Əmək haqqı xərclərinin ödənişi | | (54,781,702) | (53,870,961) |
| Işçilərə sosial ödənişlər | | (458,889) | (356,690) |
| Mal, iş və xidmətlərin alışı | | (9,465,759) | (7,471,300) |
| Beynəlxalq təşkilatlara üzvlük haqqı ilə bağlı xərclər | | (56,523) | (59,004) |
| Kreditin qaytarılması ilə bağlı faizlər və xərclər | | (5,608) | (3,471) |
| **İnzibati fəaliyyətlə bağlı xalis pul axını** | | **(64,768,481)** | **(61,761,426)** |
| | | | |
| Sair daxil olmalar xalis yekunu | | 21,129,659 | 4,842,233 |
| Sair (ödənişlərin) xalis yekunu | | (4,994,104) | (363,799) |
| | | **16,135,555** | **4,478,434** |
| **CARİ ƏMƏLİYYATLARLA BAĞLI XALİS PUL AXINLARI** | | **338,469,934** | **45,721,345** |
| | | | |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI PUL AXINLARI** | | | |
| Əmlak və avadanlıqların alışı | | (2,581,888) | (6,464,746) |
| Qeyri-maddi aktivlərin alışı | | (52,994) | (113,320) |
| Əmlak və avadanlıqların alışı ilə digər pul axınları (əsaslı təmir) | | (377,694) | - |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI XALİS PUL AXINLARI** | | **(3,012,576)** | **(6,578,066)** |
| | | | |
| **MALİYYƏ FƏALİYYƏTİ İLƏ BAĞLI PUL AXINLARI** | | | |
| Kreditlərin qaytarılması (əsas məbləğ) | | (414,029) | (400,392) |
| Kredit üzrə dövlət büdcəsinə ödənişlər | | (180,363) | (821,367) |
| İşsizlikdən sığorta haqları - daxil olan | | 141,615,450 | 130,309,769 |
| İşsizlikdən sığorta haqları - (köçürülən) | | (147,000,000) | (122,390,000) |
| Digər mənbələr üzrə pul axınlarının xalis yekunu | | - | 49 |
| **MALİYYƏ FƏALİYYƏTİ İLƏ BAĞLI XALİS PUL AXINLARI** | | **(5,978,942)** | **6,698,059** |

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS

### KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXDƏ BAŞA ÇATAN İL ÜÇÜN

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| **İL ƏRZİNDƏ XALİS PUL AXINLARI** | | **329,478,416** | **45,841,338** |
| **İL ƏVVƏLİNƏ PUL QALIQLARI** | 7 | **261,225,058** | **215,383,720** |
| **İLİN SONUNA PUL QALIQLARI** | 7 | **590,703,474** | **261,225,058** |

**Rəhbərlik tərəfindən:**

**Mətin Əsgər**
**İdarə Heyətinin sədr müavini,**
**sədr vəzifəsini müvəqqəti icra edən**

**Orxan Səmədov**
**Mühasibat uçotu departamentinin**
**müdir müavini, departamentin müdiri**
**vəzifəsini müvəqqəti icra edən**

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

29 dekabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə verilmiş qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.